

ƏBÜLFƏZ ƏHMƏD

## *RÜBAİLƏR*

Söz ki, verdin olasan həmdərd gözəlim,
Həm fərəh verdin bizə, həm dərd, gözəlim.
Naz eylə dedik, anla ki, məna məcazi,
Sən də qoysana nazına sərhəd, gözəlim!

***

Harda axar su var, yaşıllıq da var,
Axar su yaşılı daim suvarar.
Usanma göz yaşı axıtmağından,
Axan göz yaşıyla rəhməti suvar.

***

Baxıb qiyafənə, qiymət verənə,
Dönüb ikrah ilə sən baxma yenə.
Nə qədər sərvətin yeri bilinməz,
Qızıl xəzinəni saxlar viranə.

***

Ot yeyən, su içən iki ceyran var,
Ancaq vəzifədə ayrıdır onlar.
Birindən meydana gəlirsə kübrə,
Birində göbəkdən xalis müşk çıxar.

## *NAR*

Yanağında ömür boyu almalar,
Damağımız şirə dadar, dadlanar.
Xəstələrin armud istər, sağalmaz,
Dada yetməz innən belə dada, nar.

Armud uman xəstə vardı, "toxdadı",
Payız gəlsə təzə meyvə vaxtıdı.
Hər sevənə "dəli" demək saxtadı,
Aşiqlər ki, belə sözdən dad anar.

İstəsən də, andım olmaz Qurana,
Könlüm istər vüsal dada, barına.
Vaxtı gəlcək bağlar düşər barına,
Sulanaraq yenə gələr dada nar.

Yuxarıda üççə kəlmə demisən,
Bir mətləbi neçə kəlmə-kəlmə sən,
Vaxtı keçər, zayın çıxar gözləsən,
Bu Əbülfəz yaxşı sözdən dad anar.

## *QOŞMA*

Boya verir həsrətimin çələngi,
İzin vermir ürək dolu güləm mən.
Qaldırammır həsrət dolu səhəngi,
Boğazından vüsal dolu gül əmən.

Aman həsrət, könlüm evin yıxdın da
Aralıdan ikrah ilə baxdın da.
Yaşımıza yaraşmayan vaxtında,
Niyə gedim ayrı yolu gülə mən?

Çiçəklərim boy veribdir uzaqda,
Yanındayam hər istidə, sazaqda.
Ay Əbülfəz, ömür quran tuzaqda,
Əldən çıxıb ağız dolu gül əmmən.

## *DAŞ*

*"Ulduz" jurnalının*
*baş redaktoru Qulu Ağsəsə*

Əlimdə bir kəsək yoxdur,
Çatmışam altmış yaşıma.
Çox sevgilər daşa dəydi -
Bəxtəvər, ay daş, başına!

Məndən əvvəl daşa döndün,
Yaza döndün, qışa döndün.
Neçə-neçə başa dəydin -
Bəxtəvər, ay daş, başma!

Yurd həsrətin çəkəmmirəm,
Bu töhməti tökəmmirəm.
Naqis başa tökülmürəm -
Bəxtəvər, ay daş, başına!

Səngərlərə gedə bilsək,
Şəhid kimi bitə bilsək!
Düşmən başa daş ələsək -
Bəxtəvər, ay daş, başına!

Nisgilimin saçın yolsam,
Mən bu yurda oğul olsam.
Dönüb qara bir daş olsam -
Bəxtəvər, ay daş, başına!

Sən, ey mənim qara daşım,
Dar günümdə yar, yoldaşım.
Salamı almır qardaşım -
Bəxtəvər, ay daş, başına!

Sən tarixim, sən keçmişim,
Yolunda baş itirmişəm.
Qardaşım görməyən işim -
Bəxtəvər, ay daş, başına!

Bunu mənə Qulu dedi:
O, uludan ulu dedi.
Hanı səngər yolu dedi?
Bəxtəvər, ay daş, başına!

Hər sevdaya bir son qoyan,
Son qoysan da heç doymayan,
Gəl bir adam ol, sən dayan -
Bəxtəvər, ay daş, başına!

Tökmədin namərdin qanın,
Dəymədiyin mərdlər hanı?!
Özün bilirsən ünvanı -
Bəxtəvər, ay daş, başına!

Çox bəxtəvər dedim sənə,
Bəxtəvərsən, deyim yenə!
Bir gün gəlib dəydin mənə -
Bəxtəvər, ay daş, başına!

Sən dəydiyin adam itər,
Başı üstə bir daş bitər...
"Bəxtəvər" dediyim yetər -
Bəxtəvər, ay daş, başına!

## *İŞTAHA*

Alın tərim qaş tutaydı,
Kipriklərim yaş tutaydı,
Tərlədəydim, yaş tutaydım,
Qoynundakı narı, gözəl.

Yarım əsr yaşımızdı,
Girov desək, başımızdı.
Bu qatdığın başımızdı,
Hər gün, gecə yarı, gözəl
.
Çağırmadan hay verəydin,
Busələri say verəydin.
Qurtarmaz ki, pay verəydin,
Əbülfəzə barı, gözəl...

## *DÜNYADA*

Bizlər dünyaya təşnədi,
Dünya nağıldı, heç nədi.
"Namərdin atı kişnədi"-
Mərdlər qaldı pay-piyada.

Adam baxır tamahlanır,
Hər birimiz tam "ah"lanır.
Nə verirsə hamsın alır,
Dərdim yoxdu day dünyada.

Özü boyda şirin yuxu,
Şirin olmur amma çoxu.
Getdi gələnlərin çoxu -
Kim qalıbdı day dünyada.

Nizamına iradım yox,
Çox sirrini aradım, çox.
Fələk qarı, Əbülfəz, qorx -
Tutar sənə toy dünyada.

## *"QARDAŞLARIM"*

*Başqa millətin tərəqqisinə xidmət edən 30 min "qardaşım" var.*
*Rəsmi məlumatdır*

...Ayağıma badalaqsa
Aramızda bəd alaqsa
Nacinsliyi bir qalaqsa
Bizə düşmən nə lazımdır

Əslim, zatım, kökümdürsə
Bir çəkilməz yükümdürsə
Nərim deyil, lökümdürsə
Bizə düşmən nə lazımdır.

Nisgilimin dadıdırsa
Məni yoldan sapıdırsa
Yad baltanın sapıdırsa
Bizə düşmən nə lazımdır.

Dərdlərimin sultanıdır
Düşmənimə yol tanıdır
Müslüm deyil, moltanıdır
Bizə düşmən nə lazımdır.

Bu dünyanın gözün töküb
Yad qızların nazın çəkib
Bir az oğul, qızdan əkib
Bizə düşmən nə lazımdır

İnansın kim eşidirsə
Kəfənimiz eynidirsə
Vətənimiz evidirsə
Bizə düşmən nə lazımdır.

Axı qardaş belə olmaz
Sayı çoxdur, sanbalı az
Bu sözümü babala yaz
Bizə düşmən nə lazımdır.

Beldə ağır şələdirsə,
Hər addımı tələdirsə,
Qardaşlarım belədirsə,
Bizə düşmən nə lazımdır.

Uğuruna göz yaşlarım
Nöqsanların bağışlaram
Qoy doğulsun qardaşlarım
Bizə düşmən nə lazımdır.

"Qardaşın" nə vecinədi
Öz işində, gücündədi
Düşmən evin içindədi
Bizə düşmən nə lazımdır.

## *VARMI?*

Mən oduna gizli yandım,
Gülüm, hər an səni andım.
Həsrətindən alovlandım,
Qovuşmağa güman varmı?

Eşitmisən naz edərlər,
Bilirsənmi az edərlər?
Toy-nişanı yaz edərlər,
Bəs payıza güman varmı?

Öz eşqimlə ucalmışam,
Gələn gündən borc almışam.
Anam deyir qocalmışam,
Qocalara "aman" varmı?

Gəl son qoyaq bu həsrətə,
Könül verən xoş niyyətə.
Gəl çəkilək bir xəlvətə,
Görüm səndə "iman" varmı?

## KƏRƏMƏ

Cilov vurammırıq ehtirasa biz,
Hey yerdə tez-bazar, dayanammırıq.
Durub qəsdimizə - bir tərsa, bir qız -
Adi mətləbi də anlayammırıq...

Bir tərsa eşqiylə dağlar aşırıq,
Buraxıb kənara saf qızı, dədə!
Dəli, xəstə kimi hey dolaşırıq.
Harda oğurlatdıq saqqızı, dədə!?

Bu əsli qızların əsil xisləti,
Döndü xəyanətə, a Kərəm indi.
Hardasa babalar çəkən ləzzətin,
Oturub altını çəkirəm, indi!.

Bəs niyə fərqinə varmadıq bunun.
Dedik ki, düymədir, açılar daha.
O qara keşişlər quran qurğunun.
Ahıdır, bax bu gün, çatır Allaha!

Bir tərsa qızının oduna düşüb,
Gəzdin obaları, gəzdin birbəbir.
İndi obalara pıçha-pıç düşüb,
Ellər, süd puludur, dalba-dal gedir.

Bir tərsa qızına verdin canını.
Nə baha almısan, tazını dədə!
Yoxsa axırıydı deyin dünyanın
Çəkibdi gör kimin nazını, dədəm?..

Sənin günahının babalı ağır.
Tanrı qarğışına tuş gələn mənəm.
Bizim gözəllərin ürəyi yağır.
Özgə qancığına xoş gələn mənəm!

Səni ata-bala oda saldılar.
Düşdün bir tilsimə, alovda yandın.
Məncə bu xəbər də müəmmalıdır,
Şahid duran kimdi. Əsli də yandı?!

Düymə açılmadı... Cəhənnəmə ki,
Yüz gözəl önündə baş əyməzdimi?
Biz düyün açırıq, ancaq hələ ki.
Bu saxta düyünlər başları əzir!

Min illik yanğıdır, didir qəlbimi -
Babamın keşişlə olan alveri.
Alaq boynumuza, alaq səmimi.
İtirdik ötüşən bu min illəri...

Bir istək önündə əydin başını,
İstəyə əyildik, hər qovğamızda.
Bizim boğazımız bülöv daşımı,
Bıçaq itilənir boğazımızda!

Azdıq yolumuzu Əsli dalınca,
Yalvaraq Tanrıya, a Kərəm dədə!
Sənin əməllərin mənim olunca.
Qan oldu Arazım, Həkərim, dədə!

...De, kimi qınayır Zəlimxan Yaqub,
De, niyə sinəmi dağlayır, axı?
Bu millət ölüsün ortaya qoyub,
İndi dirisini ağlayır axı!!!

## SƏRBƏSTLƏR

Yetim uşaqlar kimidir
Ahıl yaşlarında
Tənha yaşayan kişilər...
Qulluğunda xanımı, qızı,
gəlini dayanan
tay-tuşlarını görəndə
"kiçilər"...

***

Heyifin gəlir
Iki qadın tanışımın
birinə,
o birinin də
ərinə.

***

Sənə kar eləmir
mənsizliyin.
Mən də dadını yaxşı bilirəm,
Səninlə sənsizliyin.